*Mahmud Kaşğarlı* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 3 Sayı: 7 / 184-192 ISSN: 3005-3137
*Mahmud Kashgarly* International Scientific Journal. 2025 / Volume: 3 Issue: 7 / 184-192 e-ISSN: 3005-4982

DOI: https://doi.org/10.36719/3005-3137/7/184-192

**Aytən Abbasova-Quliyeva**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
http://orcid.org/0000-0002-7445-844X
aytan.abbasova-quliyeva@mail.ru

# Cənubi Qafqazın geosiyasi əhəmiyyəti: Azərbaycan-Türkiyə-İsrail əməkdaşlığı

## Xülasə

Cənubi Qafqaz regionu tarixin müxtəlif dövrlərində dünyanın aparıcı dövlətlərinin maraq obyekti olmuşdur. Müasir beynəlxalq münasibətlər sistemində regiona böyük dövlətlərin marağı hələ soyuq müharibə illərində özünü büruzə vermiş, soyuq müharibənin əsas aktorları olan Amerika Birləşmiş Ştatları və Sovet Rusiyası Cənubi Qafqaza təsir gücünü artırmaq naminə "cinah dövlətlər"dən istifadə etmişdir. XX əsrin 90-cı illərinədək bu cür cinah dövlətlərin sırasına Türkiyə Respublikası və İsrail dövləti də daxil olmuşdur. Hətta bu iki dövlətin ABŞ ilə xarici siyasət əlaqələrinin əsas punktlarından biri də məhz Cənubi Qafqaz regionunda amerikan maraqlarının qorunması və yayılması ilə əlaqədar olmuşdur. SSRİ-nin dağılmasından və soyuq müharibənin bitməsindən sonra Türkiyə Respublikası və İsrail dövləti Cənubi Qafqaz regionunda yenidən müstəqilliyini bərpa etmiş post-sovet respublikaları ilə münasibətlərini davam etdirməyə, daha da gücləndirməyə çalışmışdır. Bu amil Türkiyə Respublikasının və İsrail dövlətinin Azərbaycan Respublikası ilə qarşılıqlı münasibətlərinin qurulmasında və inkişafında əsas faktorlardan biri olmuşdur. Bu baxımdan məqalədə Cənubi Qafqazın geosiyasi əhəmiyyəti fonunda Azərbaycan-Türkiyə-İsrail əməkdaşlığı və tərəfdaşlığının əsas məqamları, Azərbaycan Respublikasının möhtəşəm qələbəsi və ərazi bütövlüyünün tam surətdə bərpa etməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi zamanı Türkiyə Respublikası və İsrail dövlətinin dəstəyini araşdırmaq nəzərdə tutulmuşdur.

***Açar sözlər:*** *Cənubi Qafqaz, Azərbaycan Respublikası, Türkiyə Respublikası, İsrail dövləti, 44 günlük Vətən müharibəsi*

**Aytan Abbasova-Guliyeva**
Baku State University
PhD in history
http://orcid.org/0000-0002-7445-844X
aytan.abbasova-quliyeva@mail.ru

# Geopolitical importance of South Caucasus: Azerbaijan-Turkiye-Israeli partnership

## Abstract

The South Caucasus region has been an object of interest for the world's leading states at various periods of history. In the modern system of international relations, the interest of great powers in the region was already evident during the Cold War, the main actors of the Cold War - the United States of America and Soviet Russia - used "flank states" to strengthen their influence in the South Caucasus. Until the 1990s, such peripheral states included the Republic of Turkey and the State of Israel. Even one of the main points of the foreign policy relations of these two states with the United States was associated with the protection and expansion of American interests in the South Caucasus region. After the collapse of the USSR and the end of the Cold War, the Republic of Turkey and the State of Israel tried to continue relations with the post-Soviet republics that had restored their independence in the South Caucasus region and to develop them further. This aim was one of the main factors in the establishment and development of relations between the Republic of Turkey and the State of Israel with the Republic of Azerbaijan. In this regard, the article is intended to examine the main points of the Azerbaijani-Turkish-Israeli cooperation and partnership in the context of the geopolitical significance of the South Caucasus, the support of the Turkish Republic and the State of Israel during the 44-day Patriotic War, which resulted in the great victory of the Republic of Azerbaijan and the complete restoration of its territorial integrity.

***Keywords:*** *The South Caucasus, the Republic of Azerbaijan, the Republic of Turkiye, the State of Israel, 44-day Patriotic War*




## Giriş

Qara dənizdən Xəzər dənizinə qədər böyük bir ərazini əhatə edən, mədəni, etnik, dil və dini müxtəlifliyi özündə ehtiva edən üç dövləti birləşdirən, Şərqdən Qərbə uzanan tranzit yolunun üzərində yerləşən Cənubi Qafqaz regionu tarixən mürəkkəb siyasi proseslərin və qarşıdurmaların mərkəzində olmuşdur. Bu məqamlar regionun geosiyasi əhəmiyyətini artıran əsas amillər olmuşdur.

Görkəmli amerikalı coğrafiyaşünas Saul Bernard Koenin də qeyd etdiyi kimi "*....Geosiyasət öz dövrünün məhsuludur....*" (1). Hər bir tarixi mərhələdə həmin dövrün dünya nizamını və dünya xəritəsini izah etmək naminə geosiyasi model yaradılmışdır. XX əsrin sonu-XXI əsrin əvvəllərində hər hansı bir dövlətin böyüklüyü və siyasi gücü onun dəniz hakimiyyəti və ya Heartland adlandırılan - Rusiya imperiyasının, gələcəkdə də Sovet Rusiyasının idarə etdiyi ərazilərlə əlaqədar olmuşdur. Həmin dövrlərdə Cənubi Qafqaz regionu Rusiyanın tərkibində olduğu üçün uzun müddət anqlo-amerikan təsirindən uzaqda qalmışdır.

**Tədqiqat**

**1.Geosiyasi əhəmiyyətə malik Cənubi Qafqaz regionu.** Tarixən Cənubi Qafqaz regionu üç əsas imperiyanın maraq obyekti olmuşdur: Fars imperiyası, Osmanlı imperiyası və Rusiya imperiyası. Artıq XVIII əsrdə region provaslav xristianlıqla Yaxın Şərq regionunda mövcud olan İslam dini arasında bufer zona rolunu oynayırdı. Regionu Rusiya imperiyası üçün maraqlı edən əsas məqamlardan biri də onun Mərkəzi Asiyaya gedən tranzit yolunun üzərində yerləşməsi, habelə zəngin karbohidrogen resurslara malik olması olmuşdur. Zəngin karbohidrogen resurslar XIX əsrdə Qərb dövlətlərini də özünə cəlb etmişdir: Rotşild və Şell kompaniyaları neftin hasilatı, Simens şirkəti isə dəmir filizinin hasilatı üzrə

konsessiyalara rəhbərlik etmişdir.

İkinci dünya mühaibəsindən sonra dünyanın siyasi mənzərəsi kəskin surətdə dəyişmiş, coxqütblü dünya kommunizmlə Qərb demokratiyasının mübarizə meydanına çevrilmiş ikiqütblü dünya ilə əvəz olunmuşdur. Həmin dövrdə Cənubi Qafqaz regionu kommunist Rusiyasını Cənub-Şərqi Avropa və Yaxın Şərq regionu ilə əlaqələndirən coğrafi əhəmiyyətli zonaya çevrilmişdi.

XX əsrin 80-cı illərinin sonunda SSRİ-də yenidənqurma siyasəti və sosializmin çökməsi nəticəsində beynəlxalq münasibətlərdə "yeni dünya nizamı" formalaşmışdı. Məşhur amerikalı sosioloq və politoloq Samuel P.Hantinqtonun irəli sürdüyü yeni ideyada "sivilizasiyaların toqquşması" labüd hal olaraq qiymətləndirilmiş və əsas qırılma nöqtələri olaraq Balkanlar, Qafqaz və Yaxın Şərq regionları müəyyənləşdirilmişdi (2, 148). Beləliklə, artıq Cənubi Qafqaz regionu nəinki coğrafi əhəmiyyətinə görə, habelə strateji mövqeyi baxımından Qərb-Şərq və Şimal-Cənub arasında körpü rolunu oynamağa başlamışdı.

## 2.Azərbaycan-Türkiyə-İsrail əməkdaşlığı

***Azərbaycan-Türkiyə münasibətləri***. Türkiyə Respublikasının Azərbaycan Respublikası ilə əlaqələri mədəni və coğrafi yaxınlıq baxımından həmişə digər türk dövlətləri ilə münasibətlərdən fərqlənmişdir. Xüsusilə son illərdə iki ölkə arasındakı əməkdaşlıq və tərəfdaşlıq artmışdır. Azərbaycan-Türkiyə münasibətlərinin əsasını energetika və hərbi sahələrdə tərəfdaşlıq təşkil edir və hər iki dövlətin liderləri bu münasibətləri ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu "bir Millət, iki Dövlət" prinsipi əsasında həyata keçirirlər.

Azərbaycan Respublikası Türkiyənin əsas qaz təminatçısı olduğu kimi, Türkiyə Respublikası da Azərbaycanın karbohidrogen resurslarının Avropaya nəqli yolunda əsas körpü və keçid rolunu oynayır. İki dövlət arasındakı hərbi tərəfdaşlıq sayəsində məhz Azərbaycan Respublikası post-sovet dovlətləri arasında NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) ilə müdafiə sazişi ( daha dəqiq desək, hərbi təhsil haqqında saziş ) imzalayan ilk dövlət olmuşdur.

Cənubi Qafqaz regionunu tədqiq edənlər üçün sirr deyil ki, Türkiyə və Azərbaycan liderləri, habelə hər iki dövlətin əhalisinin böyük əksəriyyəti münasibətlərini "bir Millət, iki Dövlət" prinsipi əsasında müəyyənləşdirir. Bu iki dövlət arasındakı əməkdaşlıq səviyyəsinin dünyada nadir hadisələrdən olduğunu söyləsək, yəqin ki mübaliğə etmiş olmarıq.

Hər iki dövlət başçısının bəyanatları Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini və dərinliyini daha yaxşı anlamağa şərait yaradır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "*....Türkiyə bizim üçün təkcə dostumuz və tərəfdaşımız deyil, həm də qardaş ölkədir. Biz tərəddüd etmədən Türkiyəni*

*dəstəkləyirik və həmişə dəstəkləyəcəyik....*" deyə vurğulamışdır (3). Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə qeyd etmişdir ki, "*.... "bir Millət, iki Dövlət" devizi çərçivəsində bütün sahələrdə əlaqələrimizi və əməkdaşlığımızı gücləndirmək üçün səylərimizi davam etdiririk....*" (4).

Azərbaycan-Türkiyə münasibətlərinin hərbi fazası hələ birinci Qarabağ müharibəsi dövrünə, daha dəqiq desək, 1992-ci ilə əsaslanmış, Türkiyə Respublikasının NATO-nun üzvü olması Azərbaycan Respublikasının bu hərbi təşkilatın Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramına qoşulmasına şərait yaratmışdır. Türkiyə Respublikası 2009-cu ilədək NATO-Azərbaycan əlaqələrində "təmas ölkə" rolunda çıxış etmiş, 1999-2015-ci illərdə SNT-nin Türkiyə ərazisində təşkil edilmiş hərbi kurslarında Azərbaycandan 762 hərbi heyət təlim keçmişdir (5, 589).



Azərbaycan-Türkiyə hərbi tərəfdaşlığına təsir edən əsas amillərdən biri məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müsbət məcrada həll edilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsinə yönəlmişdir. 2006-cı ildə iki ölkə arasında "Hərbi sahədə təlim, texniki və elmi əməkdaşlıq haqqında saziş", 2010-cu ildə isə o dövrkü Türkiyə prezidenti Abdullah Gülün Bakıya səfəri zamanı 23 maddədən ibarət "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım sazişi" imzalanmışdır. Sonuncu sazişin birinci maddəsində qeyd olunmuşdu

ki, tərəflərdən hər hansı birinin ərazi bütövlüyü, suverenliyi və dövlət sərhədlərinin toxunulmazlığı məsələsində təhlükə yaranacağı təqdirdə Azərbaycan və Türkiyə ordusu birlikdə hərəkət edəcək, iki ölkə bir-birinə qarşılıqlı yardım göstərəcəkdir (6). 44 günlük ikinci Qarabağ müharibəsi dövründə Türkiyə Respublikası məhz sözügedən sazişə əsaslanaraq Azərbaycan Respublikasına tam mənada siyasi və hərbi yardım göstərmiş, müharibədən sonrakı dövrdə iki ölkə arasındakı hərbi-texniki tərəfdaşlıq yüksələn xətlə inkişaf etmişdir. Prezident R.T.Ərdoğan və türk komandoları 10 noyabr 2020-ci il Zəfər paradında iştirak etmiş, Türkiyənin dünyaca məşhur Bayraktar pilotsuz təyyarələrinin istehsalçısı olan "Baykar Makina" 2022-ci ildə Bakıda öz filialını açmışdır (7).

Azərbaycan-Türkiyə əməkdaşlığı bu gün də yüksəliş dövrünü yaşayır; ikitərəfli münasibətlər hərbi sahədə əməkdaşlıqla kifayətlənmir, Şuşa bəyannaməsinin imzalanmasından sonra Türk Dövləri Təşkilatına (TDT) üzv dövlətlərin hərbi, iqtisadi və siyasi həmrəyliyinin formalaşdırılması istiqamətində, habelə İğdır-Naxçıvan qaz kəməri layihəsinin imzalanması ilə iqtisadi tərəfdaşlığın inkişaf etdirilməsi naminə əməli addımlar görülür.

***Azərbaycan-İsrail münasibətləri.*** Bir çoxları düşünürlər ki, Cənubi Qafqaz regionu İsrail dövlətinin maraq obyekti ola bilməz, çünki İsrailin region dövlətləri ilə heç bir sərhəd qonşuluğu yoxdur və burada mövcud olan siyasi münaqişələr (Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya) regionun siyasi mənzərəsini gərginləşdirir. Bununla belə, Cənubi Qafqazın strateji yerləşmə koordinatları, onun Mərkəzi Asiya, Şərqi Avropa, Rusiya və Yaxın Şərqlə əlaqələrdə əsas körpü rolunu oynaması İsrail dövləti üçün regionu cəlb edən amillərdəndir.

İsrail dövləti regionun hər üç dövləti ilə (Azərbaycan, Gürcüstan, Ermənistan) ikitərəfli münasibətlər qurmağa cəhd etsə də, əsas prioritetlər Azərbaycan və Gürcüstan Respublikaları olmuşdur. Gürcüstanla münasibətlər hərbi və iqtisadi amillərə əsaslanmışdır ki, bunun da ən bariz nümunəsini 2008-ci il Rusiya-Gürcüstan müharibəsi zamanı istifadə olunmuş İsrail hərbi texnikalarından görmək mümkündür (8).

İsrail dövlətinin stabil və dayanıqlı münasibətlər qurduğu və əməkdaşlıq etdiyi əsas region dövləti Azərbaycan Respublikası olmuşdur. İkitərəfli əməkdaşlığa təsir göstərən amillər Azərbaycanın zəngin karbohidrogen resurslarına malik olması, ölkənin İran və Rusiya kimi aparıcı dövlətlərlə sərhədə malik olması, burada dini və etnik tolerantlığın qorunub saxlanması və s.-dir. İsrail dövləti hələ XX əsrin 90-cı illərində, Dağlıq Qarabağ münaqişəsi yenidən alovlandığı zamanlardan Azərbaycan Respublikası öz ərazi bütövlüyünü və suverenliyini tam təmin edənədək daima dövlətimizin yanında olmuşdur.

2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra Rusiya Federasiyası ilə

münasibətlərini gərginləşdirməmək naminə Gürcüstanla əlaqələrini bir qədər zəiflədən İsrail dövləti bunun əksinə olaraq Azərbaycanla əməkdaşlığını daha da gücləndirdi. Həmin dövrdə iki ölkə arasında ticarət dövriyyəsi 4 milyard dollar təşkil edirdi; İsrail Azərbaycandan neft alır, hamçinin növbəti onillik üçün 10 milyard kubmetr qaz almağı da planlaşdırırdı (9).

İsrail dövləti Azərbaycanı həmişə Cənubi Qafqaz regionun aparıcı qüvvəsi olaraq görmüşdür.İsrailin keçmiş prezidenti Şimon Peresin də qeyd etdiyi kimi, "*....Azərbaycan İranın Yaxın Şərq regionundakı təsir gücünün zəiflədilməsi üçün açar rolunu oynayır....*" (10). İran amili ilə yanaşı, Azərbaycanı İsrail üçün əhəmiyyətli edən əsas məqamlardan biri də burada böyük yəhudi icmasının mövcud olmasıdır ki, İsrail dövlətinin əsas ənənələrindən biri də dünyada yaşayan yəhudi icmalarına dəstək durmaqdan ibarətdir.

Son illərdə, xüsusilə Azərbaycan Respublikasının qələbəsi ilə nəticələnən 44 günlük İkinci Qarabağ (Vətən) müharibəsi dövründə və sonrasında Azərbaycan-İsrail əməkdaşlığı və tərəfdaşlığı ən yüksək məqama çatmışdır. Müharibə zamanı məhz Türkiyə və İsrail kimi dost dövlətlərin siyasi və hərbi dəstəyi ilə ədaləti bərpa edən və tarix yazan dövlətimiz ərazi bütövlüyümüzü təmin etməklə yanaşı, tarixi yurdlarımızın üzərində olan haqlarımızın da müdafiəsini başlatdı. Buraya hələ 1868-ci ildə Rusiya imperiyası tərəfindən yaradılan, 1919-cu ildə Böyük Britaniya və qalib dövlətlər tərəfindən Azərbaycan yuridiksiyası altında olan ərazi olaraq tanınan, lakin sonradan, Sovet Rusiyası tərəfindən Azərbaycanla onun eksklavı olan Naxçıvan arasında əlaqələri kəsmək naminə Ermənistan SSR-nin tərkib hissəsi olaraq təsdiq olunan Zəngəzur dəhlizi də daxil idi.

İsrail dövlətinin nöqteyi-nəzərindən Zəngəzur dəhlizinin əhəmiyyəti onun regiondakı güc balansını dəyişdirmək imkanına malik olması ilə əlaqədardır. Son illərdə Fələstin problemi səbəbilə Türkiyə Respublikası ilə münasibətləri kəskinləşən, İran İslam Respublikası ilə tarixi ədavətə malik olan İsrail dövləti üçün hazırki dövrdə Azərbaycan Respublikası ilə strateji tərəfdaşlığı gücləndirmək və Zəngəzur dəhlizinin yaradılmasını dəstəkləmək əsas prioritetdir. Sözügedən dəhlizin yaradılması yenicə Rusiya təsirindən çıxmağa cəhd edən və Qərbə yönələn Ermənistanın tamamilə İranın təsiri altına düşməsi təhlükəsinin də qarşısını ala bilər (11). Habelə Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazın gələcəyi üçün müsbət mənada dönüş yaratmaqla yanaşı, Çin, Rusiya və İrandan asılı olmayan yeni tranzit xəttin yaranmasına, Mərkəzi Asiya Respublikalarının müstəqil iqtisadi siyasət həyata keçirmələrinə təkan verəcək ki, bu amil Qərbin və onun bilavasitə tərkib hissəsi olan İsrailin əsas xarici siyasət amallarından biridir. Bu baxımdan Azərbaycan-İsrail ikitərəfli əməkdaşlığı və tərəfdaşlığı təkcə hərbi deyil, iqtisadi və siyasi amillərə

əsaslanır.

Stokholm Beynəlxalq Araşdırmalar Mərkəzinin tədqiqatlarına əsasən, 2015-2019-cu illərdə Azərbaycan Respublikasının müdafiə sistemində idxalın 60%-i məhz İsrailin payına düşmüş, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan həm İsrail, həm də Türkiyə PUA-larını düşmən mövqelərində müvəffəqiyyətlə istifadə etmişdir. 2022-ci ilin aprelində İsrailin Müdafiə naziri Beni Hansın, həmin ilin oktyabrında Maliyyə naziri Aviqdor Libermanın Bakıya səfəri nəticəsində ikitərəfli tərəfdaşlıq sahəsində münasibətlər daha da yüksəldilmişdir. Azərbaycan-İsrail münasibətlərinin zirvə nöqtəsi isə 2023-cü ilin aprelində İsrailin Xarici İşlər naziri Eli Kohenin Bakıya səfərindən bir neçə gün sonra Azərbaycan Respublikasının Tel-Əvivdə səfirliyinin açılması olmuşdur (12). Onu da qeyd edək ki, Kohenin Bakıya səfəri onun Türkmənistanın paytaxtı Aşqabadda İsrail səfirliyinin açılışına getməsindən öncə həyata keçirilmişdi (13). Bu amil də Azərbaycanın Mərkəzi Asiya respublikaları ilə əlaqələrin qurulmasında aparıcı rol oynadığının bariz sübutu idi.

## Nəticə

Yekun olaraq qeyd etmək lazımdır ki, Qara dənizdən Xəzər dənizinə qədər böyük bir ərazini əhatə edən, mədəni, etnik, dil və dini müxtəlifliyi özündə ehtiva edən üç dövləti birləşdirən, Şərqdən Qərbə uzanan tranzit yolun üzərində yerləşən, tarixin müxtəlif mərhələlərində münaqişə və qarşıdurmaların mərkəzində olan Cənubi Qafqaz regionu olduqca vacib geosiyasi əhəmiyyətə malikdir. Sözügedən geosiyasi əhəmiyyət regionun əsas aktyorlarından biri olan Azərbaycan Respublikasının aparıcı dünya dövlətləri ilə münasibətlərinə, əməkdaşlıq və tərəfdaşlığına da təsirsiz ötüşməmişdir. Hazırda Azərbaycanın siyasi-diplomatik, hərbi, iqtisadi, mədəni və digər sahələrdə bir çox dövlətlərlə qarşılıqlı əməkdaşlığı mövcuddur ki, bu cür dövlətlərdən ən əsasları sırasında mədəni-coğrafi yaxınlığı, habelə hərbi-siyasi-iqtisadi əməkdaşlığı olduğu Türkiyə Respublikası və hərbi-siyasi tərəfdaşlıq həyata keçirdiyi İsrail dövləti vardır. Hər iki dövlətlə münasibətlər Azərbaycan Respublikasının qələbəsi, ərazi bütövlüyünün və suverenliyinin təmin olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra daha da yüksələn xətlə davam etməkdədir.

## Ədəbiyyat

1. **Tavadze, Natalie.** Geopolitics of the Central Caucasus / June 14, 2024 / [Electron resource]
URL: https://www.geopoliticalmonitor.com/the-geopolitics-of-the-central-caucasus/
2. Hantinqton, Samuel. Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən təşkili. Bakı, Teas Press, 2020, 396 səh.

3. **Hajizadeh, Ali.** Türkiye-Azerbaijan relations: The building of an alliance / April 29,2024 / [Electron resource]
URL: Türkiye-Azerbaijan relations: The building of an alliance – Aze.Media
4. **Guldogan, Diyar.** “Azerbaijan’s Recent Victory in Karabakh ‘Matter of Pride’: Turkish President Erdogan,” / September 25, 2023 / [Electron resource]
URL: https://www.aa.com.tr/en/world/azerbaijans-recent-victory-in-karabakh-matter-of-pride-turkish-president-erdogan/3000640.
5. **Özsoy, Bahar.** 1918’den 2023’e Türkiye-Azerbaycan İlişkilerinin Askeri Boyutu / Güv. Str. Derg. 2023, 19(46). s. 585-605 / [Electron resource]
URL: GSD_46_Art_3_122023.pdf
6. “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında” Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu / [Electron resource]
URL: https://e-qanun.az/framework/21158
7. **Kazantsev-Vaisman, Andrey.** Israeli interests in the Caucasus: The Zangezur Corridor / October 17, 2024 / [Electron resource]
URL: https://www.jns.org/israeli-interests-in-the-caucasus-the-zangezur-corridor/
8. **Avdaliani, Emil.** İsrael and the South Caucasus: Building A New Approach / November 2, 2017 / [Electron resource]
URL: https://besacenter.org/israel-south-caucasus/
**9. Рамазанова, Айтен.** Политика Израиля на Южном Кавказе как фактор обеспечения национальной безопасности / 2021 / [Electron resource]
URL: https://pathofscience.org/index.php/ps/article/view/1125/977
10. **Suchkov, Maxim.** Sources of Israel’s policy in the Caucasus / February 5, 2015 / [Electron resource]
URL:https://carnegieendowment.org/posts/2015/02/sources-of-israels-policy-in-the-caucasus?lang=en
11. **Kutler, Robert M.** Deepening Azerbaijani-Israeli Cooperation Contributes to South Caucasus Stability / May 23, 2023 / [Electron resource]
URL: https://www.cacianalyst.org/publications/analytical-articles/item/13756-deepening-azerbaijani-israeli-cooperation-contributes-to-south-caucasus-stability.html
12. **Johnson, Shawn.** Turkiye’s Baykar Makina Set up Office in Azerbaijan / December 27, 2022 / [Electron resource]
URL: https://biz.crast.net/turkiyes-baykar-makina-set-up-office-in-azerbaijan/
13. Türkmənistanda İsrail Səfirliyi açıldı / 20Aprel, 2023 / [Electron resource]
URL: https://turkmedia.az/turkmənistanda-israil-səfirliyi-acildi/

**Daxil oldu: 24.04.2025**
**Qəbul edildi: 28.06.2025**